Səh. 2 Məsum görünən qəbahətli – Lamiyə Hacıyeva
Səh. 4 Baş nazir təhsil naziri ilə təhsil sahəsində həyata keçiriləcək yenilikləri müzakirə edib
Səh. 5 İnsanlığın beləsi – Çiyalə Osmanova
Səh. 6 Türkdilli xalqların əxlaqi-estetik aləmi – Elizbar Cavelidze
Səh. 3 Qələmi sındırmayın! – Esmira Ələkbərli
Səh. 4 Qeyri-gürcüdilli məktəblərdə keyfiyyətli təhsilin əlçatanlığına diqqət artırılacaq
Səh. 7 Niderland – pərdə arxasındakı gerçəklər – Afiq Muxtaroğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL
2023-CÜ İL
№ 003 (174)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR: BİZ ÖLKƏMİZİ MÜHARİBƏDƏN YAYINDIRA BİLDİK



Hər bir müharibə böyük itkilərə, dağıntılara səbəb olur. Biz bunu son olaraq Ukrayna-Rusiya müharibəsində görürük. Eləcə də digər münaqişələrin ölkələrə vurduğu ziyanların şahidiyik. Ona görə də biz milli maraqlarımızı hər şeydən üstün tutaraq, Gürcüstanı müharibələrdən uzaq tuturuq. Gürcüstan regionda və dünyada sülhün tərəfdarıdır və belə də olacaq. Bu sözləri Baş nazir İrakli Qaribaşvili jurnalistlərə açıqlamasında söyləyib.

*“Bütün dünyada tənəzzül, qeyri-müəyyənlik, gözlənilməzlik hökm sürdüyü halda, biz ölkəmizi ən böyük sınaqdan – müharibədən yayındıra bildik”,* – deyə Qaribaşvili vurğulayıb.

Onun sözlərinə görə, hökumətin gördüyü işlər nəticəsində 2022-ci ildə Gürcüstanda 10,1 faiz iqtisadi artım olub. Lakin Gürcüstanın inkişafını istəməyən qüvvələr var. Həmin qüvvələrin yenə də Gürcüstanı müharibəyə cəlb etmək, münaqişəni hansısa yolla ölkəmizə köçürmək cəhdi dayanmır.

Gürcüstan hökuməti isə milli maraqlara ziddi olan heç bir addımı atmayacaq.

## PARLAMENT GENDER BƏRABƏRLİYİ İLƏ ƏLAQƏDAR QANUN QƏBUL EDİB



Gürcüstan parlamenti gender bərabərliyi ilə əlaqədar yeni qanun qəbul edib. Seçki Məcəlləsinə ediləcək dəyişiklikdə seçkilər zamanı proporsional siyahıda qadınların sayının artırılması nəzərdə tutulub.

Belə ki, 2024-cü ildə və 2028-ci ildə keçiriləcək parlament seçkilərində iştirak edəcək siyasi partiyaların deputatlığa namizədlərlə bağlı təqdim edəcəyi siyahıda hər dörd nəfərdən birinin qadın olması nəzərdə tutulub. 2032-ci ildə keçiriləcək seçkilərdə isə təqdim olunacaq siyahıda hər 3 nəfərdən biri qadın olmalıdır.

Səsvermə zamanı 88 deputat layihənin lehinə, 3 deputat isə aleyhinə olub.

Hakim “Gürcü arzusu-demokratik Gürcüstan” Partiyasının parlamentdəki fraksiyasının sədr müavini Qivi Mikanadze bildirib ki, bu qanun ölkədə gender bərabərliyi ilə bağlı kvotanı artıracaq və qadınların siyasətdəki rolunu genişləndirəcək.

## TÜRKİYƏDƏ BAŞ VERMİŞ ZƏLZƏLƏ NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI 35 418 NƏFƏRƏ ÇATIB



Fevralın 15-nə olan məlumata əsasən, Türkiyənin Kahramanmaraş, Qaziantep, Şanlıurfa, Diyarbakır, Adana, Adıyaman, Osmaniye, Hatay, Kilis, Malatya və Elazığ bölgələrində baş vermiş güclü zəlzələ nəticəsində həlak olanların sayı 35 418 nəfərə çatıb. Zəlzələ nəticəsində 105 505 nəfər isə yaralanıb.

Bu barədə Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyi (AFAD) məlumat yayıb.

Məlumata əsasən, təbii fəlakət nəticəsində 6 454 bina dağılıb, zəlzələ bölgəsindən 200 minədək insan digər əyalətlərə təxliyə edilib.

Gürcüstanın Türkiyədəki səfiri Giorgi Cangava Türkiyədə baş verən zəlzələ nəticəsində 5 Gürcüstan vətəndaşının həyatını itirdiyini bildirib.

Xatırladaq ki, fevralın 6-da episentri Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ baş verib. Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək 3 170 afterşok qeydə alınıb.

## GÜRCÜSTAN HÖKUMƏTİ TÜRKİYƏDƏ ZƏLZƏLƏDƏN ZƏRƏR ÇƏKƏNLƏRƏ 1 MİLYON LARİ AYIRIB



Baş nazir İrakli Qaribaşvilinin qərarı ilə Türkiyədə təbii fəlakətdən zərər çəkmiş əhaliyə humanitar yardımın göstərilməsi üçün 1 milyon lari ayrılıb. Bu barədə hökumət administrasiyası məlumat yayıb.

Məlumata əsasən, hökumətin ehtiyat fondundan ayrılan məbləğ Türkiyədə təbii fəlakətdən zərər çəkmiş vətəndaşlar üçün dərman, ərzaq, geyim, tibbi avadanlıq və digər zəruri malların alınmasına və Türkiyə Cümhuriyyətinə daşınmasına xərclənəcək.

Qeyd edək ki, bundan başqa, Gürcüstan parlamenti, qeyri-hökumət təşkilatları və Gürcüstanın bölgələrində əhali də Türkiyədə təbii fəlakətdən zərər çəkmiş insanlara yardım toplayıb.

Ümumilikdə humanitar yardımla dolu 38 yük avtomobili ilə 658 ton 679 kilo yük Türkiyəyə yola salınıb.

Həmçinin hökumət baş verən zəlzələlərdə dağıntılar altında qalanların xilas edilməsinə dəstək olmaq üçün ilk gündən Türkiyəyə 193 nəfərdən ibarət axtarış-xilasetmə qrupu göndərib.

# MƏSUM GÖRÜNƏN QƏBAHƏTLİ

Günümüzdəki insanın hərəkət və davranışlarında ciddi şəkildə uyğunsuzluqlar müşahidə edirik. Davranışın nitqdən fərqliliyini görürük. Verilən sözlərə qarşı laqeydlik görülərkən, laqeydlik yetməmiş kimi, bu hərəkət qarşısında məhcubiyyət də görmürük. Bir sözlə, axır zamandakı insanda bir sıra bu kimi həkətlər görülür və hətta ikili münasibətlərdə də bu öz əksini tapmaqdadır. Sevirəm deyən insan sevginin meydana gətirməsi lazım olan davranışların əksini nümayiş etdirir, bu da qarşı tərəfdə bir güvən sarsıntısına səbəb olur. Sənin üçün dağları dələrəm deyənlərin sabahı gün dağlar yerinə, sözün əsl mənasında, sevdiyi insanın qəlbini qırmaqdadır. Yəni sevdiyinə xələl gətirməkdədir. Sevdiyi qadına sevgisini etiraf edib, min bir bəla ilə onu sevdiyinə razı salıb, onun qəlbini qazanıb, tam da bərabər həyat yolunda xoşbəxtliklə addımlamaq anında yol ortasındaca yüz cür fitnə-fəsad içində qoyub uzaqlaşanları görürük. Və yaxud da sevdiyi, uğrunda hər cür çətinliyə dözdüyü kişini həyat adlı bu səhnədə başqası ilə dəyişdiyini görürük. Bu hadisələrin dərinliyində bir neçə amil yatır, onu bəlkə görə bilmirik, amma mən bu gün gördüklərimizdən söz açmaq istəyirəm.

Deməli, bu yaxınlarda qulağıma ilişən bir neçə musiqidən söz açmaq istəyirəm, deyəcəksiniz yuxarıda yazılanın musiqi ilə nə əlaqəsi var? Əlaqəsinin olduğunu mövzunun sonuna doğru gedərkən şahid olacağıq. Musiqinin sözlərində deyilir ki, "baxma ki, sevirəm səni, zəhləm gedir səndən". İnsanı seviriksə ondan necə zəhləmiz gedə bilər axı, bu necə bir uyğunsuzluqdur? Bu nədir, nə musiqidir, bəlkə də bir komediya məqsədli ifa olunub dedim və açıb internetdə baxdığımda komediya məqsədli olmadığını gördüm, hətta səhnədən onu dinləyənləri də gördüm, ağlı başında insanlara bənzəyirdilər. İzləyicilər arasında gənc nəsillə bərabər orta yaşlı, yetkin insanlar da əylənərək izləyirdilər. O zaman məndə belə bir sual yarandı: bu insanlar nə dinlədiklərini anlayırlarmı görəsən? Bu musiqinin mənasını hansı misrada görürlər görəsən? Və ya bu musiqidən nə anlayırlar? Bu musiqidə eşqə, məhəbbətə, insana verilən dəyər haradadır? Burada sadəcə musiqinin bir cümləsini qeyd etdim, musiqi başdan sona qədər uyğunsuzluq toplusudur.

Bu musiqidən yola çıxaraq son zamanlarda ifa olunan və sevilən musiqilərin bir neçəsini incələməyə başladım, əksər musiqilərdə "məni sevən insan mənim olmalıdır" deyilir, sanki insan bir əşyadır, standart sözlər, cümlələr dəfələrlə təkrarlanır. Nə məna, nə qeyri-adilik görünmür. Üç cümlə irəli-geri oxunur, bununla da musiqi bitdi. Bəs nəyə görə bu qədər maraq oyanır izləyənlərdə, dinləyənlərdə? Bunu sizlərlə birgə incələyək.

Musiqi üç hissədən ibarət olur: sözlər, ritm və görünüş. Son zamanlarda sözlər ön planda deyil, ritm və görünüş göz önünə çıxarılıb və bunun sayəsində dinləyici və izləyici toplamaq daha asan olur. Ritm daha çox hərəkətli olur və buna görə sevilir, görünüşdə də daha çox diqqət cəlb edə bilmək üçün qadınlar üzərindən yola çıxılır. Oxuyan qadındırsa özü, oxuyan kişidirsə klip yoldaşı üzərindən, yəni qadınlar üzərindən daha çox diqqət mərkəzinə gətirilir. İzləyicilər də iki kütlədən ibarətdir: qadınlar və kişilər. Qadınlar klipləri izləyərək orada olan qadınlara bənzəmək həvəsinə bürünərkən, kişilər də görüntüdən xoşlandıqları üçün izləyirlər.

Yuxarıda yazılan abzasla daha sonrakı abzas arasındakı bağlılığa aydınlıq gətirmək istəyirəm. Bu dinlədiyimiz musiqi və bunu kimi məna daşıyan səslər, musiqilər bizim şüuraltına birbaşa təsir edir. Şüuraltında olan hər bir məlumat da bizim hərəkətlərimizə birbaşa yansımaqdadır. Yəni şüuraltında nə varsa o bizim hərəkət, davranış və eləcə də sözlərimizə yansıyar. Bu kimi musiqiləri dinləyən bir nəslin nümayəndələri də, təbii ki, musiqidə olduğu kimi uyğunsuzluqlar sərgiləməkdədirlər. Birilərinin maddi çıxarları üçün etdiyi işin bizləri gətirdiyi nöqtəyə diqqət çəkmək istəyirəm. Təbii ki, bu kimi hadisələrin zamanla üzərimizdə təsiri daha da sərt olur.

Və beləliklə bu gün gəldiyimiz nöqtənin səbəblərindən birini sizlərlə aydınlatmış olduq.

Hər zaman olduğu kimi bu dəfə də millətimə səslənirəm, millətin və cəmiyyətin öz paklığını, safliğını və milliliyini qoruması üçün gəlin birlik içərisində olaq, bizlərə mənfi təsir edən amilləri bərabər aradan qaldıraq. Bərabər qaldıraq ki, təkin buna gücü yetməz. Atalar sözündə deyildiyi kimi: "Güc birlikdədir".

Yazının başlığının "Məsum görünən qəbahətli" olmasının səbəbi də budur: musiqi məsumdur, safdır, hüzur verəndir deyilir, ancaq belə mənfi yönlü istiqamətə xidmət edən musiqilər, əfsuslar olsun ki, məsum deyillər, qəbahətlidirlər.

Məsum görünən qəbahətli hər hansı sahədə olursa olsun, mənfi təsiri varsa, insan üzərində, insanlıq üzərində onun təkan tapmasına fürsət verməməliyik.

**Lamiyə HACIYEVA**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

# SEYSMOLOQ: GÜRCÜSTAN HƏLƏ DƏ 1999-CU İLİN SEYSMİK RİSK XƏRİTƏSİNDƏN İSTİFADƏ EDİR



Gürcüstanın Milli Seysmik Monitorinq Mərkəzinin Geologiya Departamentinin rəhbəri Giorgi Boiçenko ölkədəki seysmik risklər və əsas problemdən danışıb.

Bildirib ki, Qafqaz seysmik olaraq fəal yerdir və Gürcüstanda zəlzələ riski həmişə var. Böyük şəhərlərdə hətta orta güclü zəlzələ də ciddi problemlər yarada bilər, çünki yaşayış binalarının əksəriyyəti seysmik baxımdan dayanıqlı deyil.

*"Qafqaz seysmik baxımdan fəal regiondur və bizdə də güclü zəlzələ riski var. Bir neçə il əvvəl bunun təcrübəsini yaşamışıq – 1991-ci ildə Racada 7 bal gücündə zəlzələ baş vermişdi. Eləcə də cəmi bir neçə ay əvvəl Cavaxeti silsiləsində 6 bal gücündə zəlzələ oldu. Bədbəxtlik odur ki, böyük şəhərlərdə problemin yaranması üçün güclü zəlzələ lazım deyil. 2002-ci ildə 4,5 bal gücündə zəlzələnin necə ciddi problemlərə səbəb olduğunu xatırlayırıq. 6,5-7 bal gücündə zəlzələnin olması tam mümkündür. Sadəcə, əgər bu, Türkiyədə 100 ildən bir təkrar olunursa, bizdə bu aralıq nisbətən böyükdür, məsələn, bir neçə əsr ola bilər",* – deyə Giorgi Boiçenko bildirib.

Onun sözlərinə görə, əsas problemlərdən biri köhnəlmiş seysmik risk xəritəsidir ki, ölkə hələ də köhnə xəritədən istifadə edir. Yenilənmiş seysmik risk xəritəsi tikintilər üçün yeni tənzimləmələr gətirəcək və bu, qiymətlərə də təsir göstərəcək.

Seysmoloq bildirib ki, Milli Seysmik Monitorinq Mərkəzi 2020-ci ildə xarici mütəxəssislərlə birlikdə yeni seysmik risk xəritəsi tərtib edib, ancaq bu günə qədər də həmin xəritə təsdiq edilməyib.

*"Seysmik risk xəritəmiz köhnəlib, 1999-cu ildə hazırlanmış xəritədir. Qaydaya əsasən, xəritə 5-10 ildə bir dəfə yenilənməlidir. Bu günə qədər də bu xəritədən istifadə edirik. Buraya böyük məlumat daxil edilməyib. Bu xəritədə ölkəmizin və qonşu ölkələrin seysmik, geoloji və digər göstəriciləri cəmləşdirilir və bunun əsasında məntəqələrə hansı gücdə zəlzələnin baş verə biləcəyi parametrləri ötürülür. Buna əsasən də binanın planlaşdırılması olmalıdır. Müəyyən məntəqələrdə seysmik risk parametri artıb və tikinti işləri yenə də köhnə standartla aparılır, bu, problemdir",* – deyə seysmoloq vurğulayıb.

*Mənbə: bm.ge*

# STATİSTİKA XİDMƏTİ: ÖLKƏ HƏBSXANALARINDA 9 542 MƏHBUS VAR

Gürcüstanın Milli Statistika Xidməti ölkə həbsxanalarındakı vəziyyətlə bağlı məlumat yayıb.

Bildirilir ki, Gürcüstan həbsxanalarında hazırda 9 542 məhbus var. Amma şərti cəzalıların sayı 2 dəfədən çoxdur və 22 min 33 nəfər təşkil edir.

Xidmətin məlumatına görə, məhbusların çoxu 31-49 yaşı olan insanlardır.

Azadlıqdan məhrum olunanların 326-sı qadınlar, 34-ü azyaşlı, 58-i isə yaşı 70-dən yuxarı olanlardır.

Gürcüstan həbsxanalarında 654 xarici ölkə vətəndaşı var.

Ötən il 21 məhkum azadlıqdan məhrumetmə yerlərində dünyasını dəyişib, əksər hallarda ölüm səbəbləri müəyyən edilməyib.

Bir məhbusun aldığı xəsarətdən, dördünün müxtəlif xəstəliklərdən dünyasını dəyişdiyi, dördünün isə intihar etdiyi bildirilir.

# GÜRCÜSTANDA 2 MƏKTƏBDƏ 1 ŞAGİRD TƏHSİL ALIR

Ölkə mətbuatının yaydığı məlumata əsasən, məktəblərdə müəllim və şagirdlərin sayı ilə bağlı aparılan araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb.

Bildirilir ki, Gürcüstanda 2 məktəbin hər birində bir şagird təhsil alır.

Gürcüstanın Duşeti rayonunun Çarğali kəndindəki ictimai məktəbdə 7 müəllim və 1 şagird, Kaspi rayonunun Qudaleti kəndindəki ictimai məktəbdə isə 4 müəllim və 1 şagird var.

Bundan başqa, ölkə ərazisində daha 4 kənddəki məktəblərin hər birində 2 şagird, 9 məktəbdə 3 şagird, 6 məktəbdə 4 şagird, 8 məktəbdə isə 5 şagird təhsil alır.

Ümumiyyətlə isə Gürcüstanda 288 məktəbdə 1-dən 30-dək şagird təhsil alır.

Qeyd edək ki, bu gün Gürcüstanda cəmi 2 085 məktəb fəaliyyət göstərir. Onlardan 116-sı azərbaycandilli məktəbdir. Bu məktəblərdə 632 min 726 şagird təhsil alır.

# QƏLƏMİ SINDIRMAYIN!



Azər bəyin yazısı məni çox təsirləndirdi. Sanki bütün gənclərin keçdiyi yolun aksiomasıdır. Aksioma isbat olunmayan teoremdir. Bu da o deməkdir ki, çarəsiz bir iş... olub, olur, olacaq.

Mən Esmira Ələkbərli (Esra Borçalı) 3-cü sinifdən yazıram. İlk yazım 7-ci sinifdə “Axali Marneuli” qəzetində çap olunmuşdu. Onda “Dan Ulduzu” adlanan səhifə vardı. Ən kiçik yazar idim. Heç əlimdən tutub nəyin düz, nəyin səhv olduğunu deyən olmadı. Nə öyrəndim özüm öyrəndim. Yadımdadır, o vaxt məşhur olan “Gənclik” jurnalından Məmməd İsmayılın adından mənə məktub gəlmişdi.

Yazmışdılar ki, yaşınıza görə çox istedadlısınız, təsvirinizin bədii dəyəri mükəmməldir, amma uşaq mətbuatı sizə daha uyğundur. Bu hissə yadımdadır, poçtalyon məktubu məktəbə gətirdi, məktub böyük məktəb kollektivinin əlində gəzdi... Gözlədim məni təriflәyəcəklər, alqışlayacaqlar, tanınmış şair, tanınmış jurnal mənə rəy yollayıb. Bilirsiniz nə oldu? Bilmirəm öz aralarında nə danışdılar... Valideynimə demişdilər ki, qızın uşaq şeyləri yazmır, onu qoymayın çox kitab-zad oxusun. Beləcə nöqtəyə doğru getdim, anamın təkidiylə ədəbiyyatdan uzaqlaşıb tibbə yönəldim.

Yazdıqlarımı da gah gizlətdim, gah atdım, çünki həmişə bilirdim ki, yaxşı deyən olmayacaq. Əgər bu günə qədər yazılarımı toplasaydım külliyat olardı. Bəzən həyatın elə zərbələri olur ki, heç nə sənə maraqlı olmur, o da qala, onsuz da çoxları üçün cızma-qara olan mənəvi paylaşım. Bu başqa mövzudur. Demək istəyirəm ki, uşaqlıqda o zərbələrlə böyüdüm, kimsə layiqincə qiymətləndirmədi. Düzü, mənə onların rəyi önəmli olmayıb deyə fərqində də olmamışam. Əsas sözüm odur ki, qiymətləndirməyi bacaran insanlar deyirlər ki, mənim qələmim qəlbə yatımlı, sadə və içdəndir... Səbəb bilirsiz nədir? Çünki yaza-yaza püxtələşdim. Yəni mən məktəbdə, universitetdə beləmi yazırdım? Yox. Yaşadıqca həyat təcrübəsi dəyərlilik yaratdı.

Demək istəyirəm ki, tarixdə həmişə atalar və oğullar problemi olub. Bu, tək taxt-tac davasıyla bitmir, ailədə söz keçərliyimiz cəmiyyətə varıb. Böyüklər həmişə bizi uşaq sandılar və deyəsən uşaqlar da böyüyüb acığını növbəti uşaqlardan, gənclərdən çıxdılar. Necə deyərlər, həyatın həndəsi silsiləsi...

İşə götürməyə hamı staj istəyir, ancaq heç kim düşünmür ki, işləməliyəm ki, stajım olsun. Heç vaxt təzə işə başlayan həkim, mühəndis, usta, lap elə katibə belə işinin öhdəsindən “böyüklərin” istədikləri mükəmməl şəkildə gələ bilməz. Bunun üçün illərin təcrübəsi gərəkdir.

Birinci kursda oxuyurdum. Azərbaycan Yazıçılar İttifaqında gənclərin yığıncağı vardı. Bakıda qonşumuz olan gənc bir yazar ailəsi (onda gənc nəsil sayılırdı, indi Azərbaycan ədəbiyyatında yaxşı tanınırlar) məni də o məclisə dəvət etdi. Mən tələbə yoldaşımla getdim. Orada şeirlər dinləndi, müzakirə olundu. Müxtəlif universitetlərdən, ədəbi-bədii sahədən xeyli gənclər vardı. Mən də orada “Kəndimiz” şeirimi dedim. Düzü, çox tərifləddilər ki, ilk baxışda adı adi gəldi, amma gözümüz önündə bir film yarandı. O şeiri birinci kursda yazmışdım. Sonra dedilər filan qəzetdə, filan jurnalda getməlidir. Yəqin sonra da gənc, təcrübəsiz, birinci kurs uşağının yazısı kimsəyə maraqlı olmadı, amma indi o şeiri çox yerdə həqiqətən film şeiri kimi təriflәyirlər. 40 yaşdan sonra o tərif mənə lazım deyil, çünki artıq öz ayağım üstündəyəm, kimlərinsə fikri lazım deyil, özüm analiz edə bilirəm. Əgər mənə o yaşda layiqli qiymət verib dəyərləndirsəydilər, bəlkə də yüzlərlə yazılarım itib batmazdı, doğrudan da küliyyat olardı.

Mən indi başa düşürəm o saray şairlərini. Nizamini Nizami edən nə və kim oldu? Əlbəttə, mühit və qiymətləndirmə. Yoxsa, Zəkinin nəvəsi, Yusifin oğlu, Məhəmmədin atası İlyas kimi yaşayıb gedərdi, necə ki, Həsənoğlu bir şeirlə gəlib bu günə çatdı. Nizami yazılana görə saray şairi olmayıb, amma yazılarına elə qonorarlar alırdı ki, onun nə maddi ehtiyacı vardı, nə də mənəvi. Çünki mənəvi qiymətlənirdi, əlbəttə, söhbət ithaf etdiyi poemalardan aldığı gəlirdən, kəndlərdən getmir. Yəni Nizamilər yazanda heç zəif yazmadımı, elə hamısı bu qədər dahiyanə idimi? Əlbəttə, yox. Zaman püxtələşdirdi. Məşhur bir deyim, lətifə var ki, bir gənc tanınmış bir şairə şeir aparır. Dinləyib deyir ki, bala, bunu saxla, məşhur olanda gətirərsən.

Sovet vaxtı yazıçıların yaradıcılıq evi vardı, kitabları dövlət çap edib zamanına görə də böyük qonorar verərmiş, elə yazıçı olmağa nə vardı ki. Yoxsa deyirlər, filan qədər xərc lazım ki, kitab çap etdirəsən, ən pisi də öz kitabını satmaq məcburiyyətində qalasan. Bax beləcə adam sınır, yazmaq istəmirsən, yazdlqlarını da özündən başqa dəyər verən olmayacaq deyə “itirib-batırırsan”.

Onu demək istəyirəm ki, nolar ki, gənclərə yaşına uyğun dəyər verilə, təcrübəsiz kimi, çıxdığı yolun enini-uzununu, enişini-yoxuşunu bilməz kimi, hələ nələr edəcəyini görməz kimi, onsuz da zaman onu ələyəcək, xəlbirləyəcək. Təbiətin təbii seçməsi kimi, bacaracaqsa, yaza biləcəksə, seviləcəksə qalacaq. Əks halda mühit onu onsuz da atacaq.

Böyüklər motivasiya versə nə gözəl olardı. Anam deyərdi ki, uşağı tərifləməklə əvilləndirməklə, irəli gətirmək olar.

Oğlumun bir yazısı getmişdi tanınmış bir saytda. Qorqudun 13 yaşı var, digərləri ondan çox böyük idilər. Seçimdə kimsə yaş faktorunu nəzərə almadı. Həqiqətən qələmi yaxşıdır, amma qırıldı. Nə qədər yönəldirəm, daha yazmır. Hərdən cızma-qarasını görürəm, onu da itirir, eynən anası kimi.

Bax buna görə gənclərə, azyaşlılara çox yer verin ki, gələcək üçün püxtələşsinlər. Görərsiniz, xeyli zaman sonra onlar necə gözəl yazacaqlar. İnanın, istedad, zəhmət yoxdursa, zaman özü onları siləcək.

İndi mənim ailəmdə fərqlidir. Təcrübədən yararlanıb uşaqlarıma hər şərait yaratmağa çalışıram, təəssüf ki, mühit o mühit deyil, ya bacarmırlar, ya anlamırlar, mütləq qısqanırlar, ən əsası da mane olurlar.

Bu problem tək yaradıcılıqda deyil. İstənilən sahədə qısqanclıq, paxıllıq var. Məsələn, mən tibbi-bioloji sahəni bitirdiyimə görə əvvəl Bakı şəhərində tibdə, sonra məktəbdə işlədim. Mən yeni iş günlərini xatırlayanda indi də içimdən acı bir sızıltı keçir. İnanın, bir insan görmədim ki, yaxınlaşıb xoş niyyətlə münasibət quraydı, əzməyə çalışdılar, tənəli baxırdılar, istəmirdilər öyrəndiyin yenilikləri tətbiq edəsən; nə öyrəndilər, nə də istehzadan, kinyədən qaldılar. Düşünmürdülər ki, bizim aramızda illərin yenilikləri var, mən də öyrənim, tətbiq edim, özüm də inkişaf edim. Bu günün təhsilində olan ən böyük problem. Mən müəlliməm, hansısa yeniliyi bilməyəndə utanmadan gənclərdən öyrənirəm, onlara təcrübəsizliyindən irəli gələn işimizdə olacaq, hələ qarşılaşacaqları çox nəzəri, həyati bacarıqları anladıram, yol göstərirəm, bir sözlə, xoş məramlı böyüklük edirəm. Ümid edirəm bir-birimizi anlayırıq. Bəlkə buna görə gənclərlə dostam, yaxşı anlaşıram, bəlkə özüm də gəncləşirəm. Bu anlayışımın səbəbi özümün çəkdiklərim olub. Məktəbimizdə divar qəzeti, məktəb səhifəsi təşkil etmişəm. Şagirdlər yazılar gətirirlər, hansı ki, çap olunmalı səviyyədə deyil. Mən onu qaydaya salıb əvvəl özünə göndərirəm, sonra onun yazısı kimi paylaşıram. İnanın, növbəti dəfə artıq xeyli fərqlənir.

Yəni qələmi sındırmaq tək ədəbiyyatda deyil, detektivlər qələmi sındırmağa həyatı dayandırmaq deyirlər. İnsanın ruhən sındırılmağı elə həyatının sınmağı kimi bir şeydir. Zamanında çalınmayan zəng kimi.

Bu arada “Yeni Yol” qəzeti, saytı təşkilatçılarına gənclərə, hətta məktəblilərə şərait yartdığına görə öz böyük təşəkkürümü bildirirəm. Yorulmayasınız! Dəyəriniz qiymətsizdir!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# BAŞ NAZİR TƏHSİL NAZİRİ İLƏ TƏHSİL SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏCƏK YENİLİKLƏRİ MÜZAKİRƏ EDİB



Baş nazir İrakli Qaribaşvili təhsil naziri Mixeil Çxenkeli və onun müavinləri ilə görüş keçirib.

2023-cü ildə nazirlik tərəfindən həyata keçirilmiş layihələr və gələcək planların müzakirə olunduğu görüş çərçivəsində "2030-a baxış – Gürcüstanın İnkişaf Strategiyası" implementasiya dinamikasına xüsusi diqqət ayrılıb.

Gürcüstanın təhsil və elm naziri M.Çxenkeli və müavinləri hökumət başçısına cari ildə təhsil sisteminin bütün pillələrində planlaşdırılan əsas proqram və layihələr haqqında ətraflı məlumat veriblər.

Görüş zamanı 800 məktəbin tikinti və bərpasını nəzərdə tutan 1 milyard lari dəyərində böyük miqyaslı layihələrin əhəmiyyəti barədə danışılıb.

Qeyd edək ki, layihəni Gürcüstanın Təhsil və Elm Nazirliyinin Təhsil və Elmi İnfrastrukturun İnkişaf Agentliyi mərhələli şəkildə həyata keçirir. İlkin mərhələdə ötən il tenderlər elan edilmişdir. 2022-2025-ci illərin dövlət büdcəsinin maliyyəsi ilə 320 ictimai məktəbin yenidən inşası və bərpası üçün elan edilmiş həmin tenderlər artıq başa çatıb və 80 məktəbin tikintisi ilə bağlı tender prosedurları aparılır.

Bərpa ediləcək və inşa olunacaq məktəblərin seçimi bölgələrdə yerli hakimiyyət və təhsil resurs mərkəzləri ilə məsləhətləşmə, binanın texniki baxışdan sonra araşdırılması nəticəsində həyata keçiriləcək. Birinci mərhələdə bərpa/inşaya ən çox ehtiyac duyan məktəblər seçilib. Layihənin növbəti mərhələsində 2024-2026-cı illərdə 400 məktəbin layihə/bərpa işləri həyata keçiriləcək.

Böyük miqyaslı layihənin həyata keçirilməsi ilə bütün Gürcüstan miqyasında 230 000-dən artıq şagird yeni təhsil resurslarından yararlanacaq. Nəticədə isə, 2026-cı ilin sonunda bütün ictimai ümumtəhsil müəssisələri infrastruktur baxımdan qaydasında olacaq. Bərpa və yeni məktəblərin tikintisi zamanı onların müasir standartlara uyğun təchiz edilməsi nəzərdə tutulub.

Görüş iştirakçıları Gürcüstanın Təhsil və Elm Nazirliyinin artırılmış büdcəsinin əhəmiyyətini diqqətə yetiriblər. Büdcə 2023-cüi ildə iki milyard otuz milyon səkkiz yüz min (2,030,8 milyon) lari müəyyən edilib. Bu, 2022-ci ildə təsdiqlənmiş büdcədən 345,9 milyon lari artıqdır. Gürcüstanın Baş nazirinin sözlərinə görə, hər il artırılan büdcə təhsil və elm sahəsində artıq əldə edilmiş nəticələrin yaxşılaşdırılmasına, aparılan kompleks islahatların daha da sürətlə davam etdirilməsinə şərait yaradır.

Görüş iştirakçıları erkən və məktəbəqədər təhsilin inkişafına dəstəklə bağlı da danışıblar. Qeyd olunub ki, 2023-cü ildən sistemdə ilk dəfə Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz yerli bələdiyyələrin fəal iştirakı ilə ictimai, həmçinin özəl erkən və məktəbəqədər təhsil müəssisələrində diaqnostik özünüqiymətləndirməyə başlayacaq. Bu onların avtorizasiyadan keçməsi prosesinə dəstək olmaq məqsədilə ediləcək. Bağçaların avtorizasiya prosesi 2023-cü ildə başlayacaq və 2030-cu ildə başa çatacaq.

2023-cü ildə məktəbəqədər təhsil pilləsindən dövlət dilinin tədrisinin yaxşılaşdırılması üçün məktəbəqədər təhsil müəssisələrində bilinqual təhsilin tətbiqinin fəal şəkildə davam etdirilməsi mühümdür.

Ümumtəhsil istiqamətində layihələrdən danışılan zaman qeyd olunub ki, 2022-ci ildə həyata keçirilmiş bütün məktəblərin özünüqiymətləndirmə nəticələrinin analizi əsasında qanunvericiliklə tətbiq edilmiş vaxtlarda avtorizasiya prosesi planlaşdırılacaq. 2023-cü ildə avtorizasiya prosesi 400-ə yaxın məktəbdə həyata keçiriləcək.

İslahat aparılan zaman məktəb direktorlarına dəstəyin göstərilməsi məsələsi vurğulanıb. Bu istiqamətdə nazirliyin başladığı və 2023-cü ildə başa çatacaq məktəb direktorlarının sertifikatlaşdırılması prosesi mühümdür.

Görüşdə məktəblərdə müasir təhsil mühitinin təmin edilməsi və təhsil-tədris prosesinin yaxşılaşdırılmasından da söhbət açılıb. Bu məqsədlə 2023-cü ildə bir çox mühüm təşəbbüsün həyata keçirilməsi planlaşdırılır. Həmçinin:

- Məktəblərin kompüter texnikası və kompüter laboratoriyası ilə təchiz edilməsinə başlanılacaq.
- Məktəblərdə davamlı olaraq üçüncü nəsil, kompetensiyalara əsaslanan milli tədris planının inkişafı və tətbiq prosesi davam etdiriləcək.
- 2023-2024-cü tədris ili başlayana qədər XI sinif və I, II siniflərin dərsliklərinin qrifləşdirilməsi başa çatdırılacaq. Bu, keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Paralel olaraq, yeni qriflənmiş dərsliklərin milli azlıqların dilinə tərcümə edilməsi həyata keçiriləcək.
- İnteraktiv resurs yaratmaq məqsədilə bir neçə dərslik pilot üçün rəqəmsallaşdırılacaq.
- Şagirdlərdə tənqidi düşüncə, analiz və yaradıcılığın inkişaf etdirilməsi məqsədilə Gürcüstan Şahmat Federasiyası ilə əməkdaşlıqla şahmatın tədrisi genişləndiriləcək və ikinci sinifdə də davam etdiriləcək.
- "Müdafiə və təhlükəsizlik" və "Hərbi iş" fənninin əhatə arealı artırılacaq. Bu məqsədlə ehtiyatda olan hərbi xidmətçilərin seçim müsabiqəsi və xüsusi hazırlıq elan olunacaq.
- "Gürcüstan tarixi"nin müstəqil fənn olaraq tədrisi 11-ci sinifdə davam etdiriləcək. Bu məqsədlə dərsliklərin qriflənməsi işləri aparılır.
- Qeyri-formal təhsil istiqamətində şagird düşərgəsi, məktəb kitabxanalarının yenilənməsi və şagirdlər üçün festivalların, tədbirlərin planlaşdırılması nəzərdə tutulub.
- Şagirdlər üçün məktəb olimpiadaları və fənn üzrə yığma komandaların Avropa və beynəlxalq dünya turnirlərində maliyyələşdirilməsinə davam etdiriləcək.
- İctimai televiziya ilə əməkdaşlıqla "Birinci kanal – təhsil" maarifləndirici layihə fəaliyyətinə davam edəcək. 2023-cü ildə proqram yenilənəcək və şagirdlər üçün daha artıq maarifləndirici xarakter daşıyan təkliflərə istiqamətlənəcək.
- 2023-cü ildə milli azlıqların sıx məskunlaşdığı bölgələrin qeyri-gürcüdilli məktəb müəllimlərinin dövlət dilini gücləndirməklə peşə inkişafı və təhsil-tədris prosesinə dəstək olması genişləndiriləcək.

Ümumtəhsil müəssisələrində peşə proqramlarının tətbiqinə dəstək məqsədilə 2023-cü ildə Gürcüstanın 30 ictimai məktəbində peşə təhsili almaq imkanı yaradılacaq. Bu, əvvəlcə peşə təhsilinin əlçatan olmadığı bələdiyyələrdə həyata keçiriləcək.

# QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏRDƏ KEYFİYYƏTLİ TƏHSİLİN ƏLÇATANLIĞINA DİQQƏT ARTIRILACAQ

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili barışıq və vətəndaş bərabərliyi üzrə dövlət naziri Tea Axvlediani və onun müavinləri ilə iclas keçirib.

Nazir və müavinləri hökumət başçısına cari il ərzində həyata keçiriləcək proqramlar, təşəbbüslər və layihələr haqqında məlumat verib.

Bildirilib ki, keyfiyyətli təhsilin əlçatanlığına diqqət artırılacaq. Bu məqsədlə bir sıra tədbirlərin həyata keçirilməsi planlaşdırılır:



"Həmçinin qeyri-gürcüdilli məktəbəqədər və ümumtəhsil müəssisələrində bilinqual (ikidilli) proqramın inkişaf etdirilməsi və həyata keçirilməsi arealının genişləndirilməsi; təhsil resurslarının inkişafı; müəllimlərin fənn istiqamətində, eləcə də dövlət dilini bilmək səviyyəsi kvalifikasiyasının artırılması baxımından inkişaf etdirilməsi planlaşdırılır.

Qeyd olunmalıdır ki, Gürcüstanın Baş nazirinin təşəbbüsü – uşaq bağçaları və məktəblərin tikintisi/bərpası ilə etnik azlıqlara məktəbəqədər təhsilin əlçatanlığı, eləcə də məktəblərin infrastrukturunun tamamlanması baxımından mühüm dönüş yaradacaq", – deyə rəsmi məlumatda bildirilir.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# İNSANLIĞIN BELƏSİ



Türkiyədə baş vermiş hadisələr bütün dünyanı kədərlə boğdu. Axşam isti yatağında yuxuya gedənlər dəhşətli zəlzələylə oyandılar, oyanmayanlar da çox oldu; çoxunun aydınlıq sabahları binalarla çökdü. Dağıntılar altından gələn hər səs, istər az yaşlı uşaq olsun, istər orta yaşlı, istərsə də yaşlı, çıxarılan bir insan ümidə döndü. Dünyanın hər ölkəsi Türkiyənin halına yandı. Hamı əlindən gələn köməyi etməyə çalışdı, kimi maddi cəhətdən, kimi qida məhsulları ilə, kimi də geyimlə. Bir sözlə, sol tərəfində ürək adlı orqan daşıyan hər bir kəs qarışqanın yanğını söndürmək üçün su apardığı kimi köməklik göstərməyə çalışdı. Hər biri sağ olsun! Türkiyəyə Allah kömək olsun!

Mənim bunları deməyimə ehtiyac yoxdur, onsuz da hamınız baş verən hadisələri, son vəziyyəti məndən yaxşı bilirsiniz. Sözümün canı odur ki, baş verən bu fəlakətdən sonra gördüm ki, sən demə Qardabanidə nə qədər "siyasətçi", "seysmoloq", "din xadimi", "dahi mühəndislər" var imiş. Heyif, bu günün həkimləri, tibb bacıları, müəllimləri, aşpazları, süpürgəçiləri, şagirdləri, tələbələri və ali təhsili olmayan başqaları bu sahələrdən birini seçməyiblər, yaxud seçməyəcəklər. Halbuki onlarda bu sahələrlə bağlı əla fantaziyalar var. Onlar zəlzələnin baş verdiyi gün Türkiyənin halına yandılar. Növbəti gündən başladılar hadisələri öz bildikləri kimi şərh etməyə. "Siyasətçilər" başladılar ki, "bunlar hamısı Amerikanın oyunudur, Rusiya və Ukrayna arasındakı müharibə ilə bağlıdır, ona kömək edən ölkələrin hamısı öz mənafelərini güdürlər, yoxsa onlar hamısı Türkiyəyə düşmənçilik bəsləyirlər"; "din xadimləri" başladılar ki, "bu zəlzələ Allahın qəzəbidir, hələ bu nədir, gör onların başına daha nələr gələcək"; "mühəndislər" başladılar ki, "binanın təməli yaxşı olmayıb, onlar inşaatdan nə bilirlər..."; "seysmoloqlar" başladılar ki, "hələ də zəlzələnin harada əmələ gəldiyini dəqiqləşdirə bilmirlər, bu təbii deyil, süni zəlzələdir" və ilaxır.

Heç bəlkə onlar bilmirlər zəlzələ nədir, sünisi necə olur, təbiisi necə olur. Bunlara bir də sovetpərəstləri əlavə etmək olar. Sovetpərəstlər də başlayırlar ki, "heyif deyildimi Sovet dövrü, onda tikilən binalar beləmi olurdu, onların mühəndisləri elə, tikinti materialı belə", az qalır deyələr ki, Sovetin vaxtında zəlzələ belə olmurdu.

İndi bu "qiymətləndirmələrin" nə qədər doğruluq payı var-yox, özləri daha yaxşı bilirlər. Onsuz da COVID-19 kimi bu da Amerikanın "oyunudur". Səbəbi nədir? – Əhalinin sayını azaltmaq, Türkiyəni zəiflətmək. Axı Amerikada rəngli düymələrdən ibarət bir otaq var: birinə basanda virus yayır, o birinə basanda atom bombası atır, başqa birinə basanda zəlzələ olur. Sonra da kömək edir ki, qoy bizdən görməsinlər. Bu da olur siyasət. Yaxşı ki, NATO və ya BMT kimi təşkilatlarda qardabanili "siyasətçi" yoxdur. Bir də onu deyim ki, bu söhbətləri edənlərin əksəriyyəti kişilərdir. Onlar "qiymətləndirmə" etdikləri zaman həyat yoldaşları onlar üçün dua edir, köməklik göstərməyə çalışır. Köməklik demişkən, indi də deyirlər guya yığılan yardımları aparıb çatdırmırlar, satırlar. Buna inananlar da başlayırlar heyifsilənməyə...

Bəziləri də bu fəlakəti öz faydalarına çevirib, dolablarında artıq yer tutan, geyinməyə əl verməyən geyimləri göndərirlər. Hələ bir özlərinə bəraət qazandırırlar ki, indi onlar heç bunu da tapmırlar. Bəli, onların bir parça isti geyimə ehtiyacları var, amma bu o demək deyil ki, sən vicdansızlıqla kömək edəsən. Axı sən insansan, o da bir insandır. Belə insanlıq olmur! Əgər hadisələri düzgün dəyərləndirə bilmirsinizsə, qoyun bu işin əhli dəyərləndirsin, kömək etməyi də vicdan duyğusuna həqiqətən sahib olanlar etsinlər.

**Çiyalə Osmanova**

*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# DAĞINTILAR ALTINDA QALAN XATİRƏLƏR



Bildiyimiz kimi, həyatda hər şey, necə deyərlər, gəldi-gedərdi. Yəni hər şey ötəridir. Həyatımızda əbədi qalan yalnız xatirələrimizdir. Hisslərimizi oyadan kövrək musiqi dinlədikdə xatirələrimiz bir anlıq belə olsa əlimizdən tutub bizi keçmişə – acılı, kövrək, sevincli günlərə aparır. Yaşadığımız hadisələr, istər pis, istərsə də yaxşı olsun, yaddaşımızda qalır və yavaş-yavaş xatirələrə çevrilir. Elə günlər vardır ki, necə keçdiyini bilmirik, ancaq bir gün yadımıza düşdükdə günlərin necə tez keçdiyini məhz onda anlayırıq. Etdiyimiz səhvləri geri dönüb düzəltmək istəsək də, bu, heç vaxt alınmır. Keçmiş artıq xatirə kitabımızın vərəqlərinin sayını çoxaltmağa davam edir. Ancaq keçmişdən dərs çıxarıb sabaha, gələcəyə hazır ola bilərik. Bəzən həyatda çətinliklərlə üz-üzə qaldıqda xatirə kitabımızı vərəqləyib bir anlıq da olsa hər şeyi unudub keçmişə qayıdıb ömrümüzün qalan günlərinə şirinlik qatmaq istəyirik. Belə bir cümlə oxumuşdum: "Həmişə xatirələrimizi zamanın soyuğundan, şaxtasından qorumağa çalışırıq".

Xatirələrimiz hər birimiz üçün doğma və əzizdir. Xatirə kitabımızı vərəqlədikcə yaddaşımızın lap dərinliyinə gedib çatırıq. Bəzən fikirləşirəm ki, əgər xatirələr olmasa həyat necə olardı? Yəqin ki, boşluqlar içərisində yaşayardıq. Əgər həyat boşluqlardan ibarət olarsa bunu həyat adlandırmaq olarmı?

İnsan yaşadığı müddətcə yaddaşında daha çox iki cür xatirə qalır: acı və şirin. Şirin xatirələri yada saldıqda həmişə üzümüz gülür, geriyə qayıtmaq istəyirik. Acı xatirələr də şirin xatirələr kimi heç vaxt unudulmur, ancaq unutmağa çalışırıq. Buna misal olaraq Türkiyədə baş verən zəlzələni deyə bilərik. İnsan fikirləşdikcə daha pis olur. Gecə xəyalları ilə yatıb oyandıqda xəyallarının daş altında qaldığını görən Türkiyənin, milyonlarla insanlara kömək edib, hər ölkənin yanında olan ölkənin bu gün hər kəsin köməyinə ehtiyacı var. Ən çox insanı pərt edən isə uşaqların ata-analarını, ata-anaların övladlarını itirməsidir. Baş verən zəlzələ nəticəsində bir çoxlarının həyatı məhv oldu. Gülərək yatıb faciyəvi şəkildə oyanan da oldu, oyanmayan da. Ancaq oyanmayanların sayı daha çoxdur. Binaların uçması minlərlə insanın küçədə qalmasına səbəb oldu. Çoxlarının axırıncı söhbəti, ailəvi yedikləri şam yeməyi oldu. Bu onların şirin xatirələri olaraq qalacaq, dağıntıların altında oynadıqları sabah isə acı xatirələrinə qara hərflərlə yazılacaq...

Başın sağ olsun, Türkiyə!

Xatirələri gölə, çaya və s. bənzətmək olar. Yəni zaman hər gün ömrümüzdən keçən günləri özü ilə götürüb gedir. Bir-bir gedən günlər getdikcə çoxalır və daha çox günlərin getməsinə səbəb olur. Nəticədə gündən-günə xatirə kitabımızın vərəqləri dolmağa başlayır. Günlər, həftələr, aylar, illər keçdikcə ömrümüzdən maraqlı günlər bir-bir keçir. Yaşadığımız müddətcə xəyallarımız gələcəyə bağlanır, ömür keçdikdə isə xatirələrimiz keçmişə bağlanmağa başlayır.

**Validə Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ
## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK
### (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Yuxarıda artıq qeyd etdim, "Dədə Qorqud"un bütün bədii mənzərəsi iki rənglə – ağ və qara ilə çəkilmişdir ki, bu da kontrast yaradır. Aydındır ki, bu rənglər metafor fikrin ötürücüsüdür: ağ mərhəmətliliyin, zərifliyin, mənəviyyatın ifadəsidir və müvafiq olaraq bu rəng əxlaqi-estetik səviyyədə hökmranlıq edir. Qara isə ağın antikontrastı olaraq pisliyin, yamanlığın əmələ gətiricisidir. Aydındır ki, bu kontrast ağlığın estetikliyini və əxlaqlılığını kəskin şəkildə büruzə verir. Müvafiq olaraq atlı, istərsə də onun libası ayrılır, insanın mənəvi əhval-ruhiyyəsi – xoşbəxtlik, bədbəxtlik, ev heyvanları, çöl heyvanları... Bu qarşılıqlı ziddiyyət gündəlik məişətdə də özünü göstərir. Matəm zamanı oğuzlar ağı soyunub qara geyinirlər. İllah da ki, "Ağ çadırdan çıxıb qara çadıra girirlər". Qara rəngə uyğun olaraq qara dəvə və qara buğa müdhiş heyvan kimi bizə təqdim olunur. Qara geymiş dərviş isə dərdə qərq olunmanın rəmzidir. Qara dağ və sıra qara dağlar bədbəxtlikdən xəbər verir. Qara çadır, qara qoyunun keçəsi, qara qoyunun qovurması təhqir etməyin və məhəl qoymamağın əksetdiricisidir. Qara çay nə zaman xeyir gətirən olub? Qaraya bürünmüş döyüşçü bir qayda olaraq yolunu azan kafir düşməndir. Qara yuxu şərin göstəricisidir və sair. Bunun əksinə olaraq ağlıq, qeyd etdiyim kimi, mərhəmətliliyin göstəricisidir: ağ qaz gözəl qadın və gəlinin rəmzidir. Eləcə də ağ başlı çadır fərqlidir. Çal saçlı, ağsaqqallı ata və ağ süd əmizdirən ağbirçəkli ana böyük hörmətə layiqdir. Qeyd etmək lazımdır ki, "ağ süd əmizdirən" "ağbirçəkli ana" eposda fövqəladə şəkildə vurğulanmışdır. Sanki bu faktda qeyri-adi bir şey yoxdur, südün ağ olması hamı üçün məlumdur. Lakin ağlığın vurğulanması məni düşündürür ki, ağ rəng müəyyən fikrin xəbərvericisidir. Hər şeydən öncə, ağbirçəkli ana təkcə yaşın göstəricisi deyildir, eləcə də onun mərhəmətli xarakterinin göstəricisidir. Südün ağlığının vurğulanması bizə südün rəngini deyil, bu, tamamilə təbiidir, onun mərhəmət və əxlaqın rəmzi fikri ilə yüklənməsini təqdim edir. Eləcə də düşmən əlinə düşən oğuzların boğazının və əllərinin ağlığı dəfələrlə qeyd edilmişdir. Bu halda da ağ rəng onların mənəvi və igidlik üstünlüyü ilə bizi tanış edir.

Həmçinin qısa epizodda Dirsə xanın dustaq edilməsi zamanı üç dəfə təkrarlanır: "Ağ əllərin ardına bağladılar, qıl sicim ağ boynına taqdılar" (Elə orada, səh. 46). Ağ rəngə diqqət yetirmək təsadüfi olmamalıdır və Dirsə xanın bədəninin saflığına işarə edir. Və ya oğlan Bayandır xanın "ağ meydanında" cəng etmişdir. Bu halda da meydanın ağ göstərilməsi ondan xəbər verir ki, cəng nəinki adidir, eləcə də bu döyüşün ələlxüsus olması deməkdir. Oğuz qızının gözəlliyinə gəldikdə, bir neçə sözlə belə verilib: "Ağ üzlü, ala gözlü gəlin" (Elə orada, səh. 47). Ümumiyyətlə, ağsaqqal atanın, ağ saçlı qocaların xatırlanması onlara qarşı böyük pərəstişkarlığı göstərir, bu da oğuz etikası ilə möhkəmləndirilmişdir ki, yaşı və yaxud ixtiyarlılığı, eləcə də əldə olunan təcrübəni və müdrikliyi qəbul edir. Və ən başlıcası, qədim ənənələrin və qəhrəmanlıq tarixinin keçmişin rəmzləri kimi dərk olunması şəksizdir – istənilən xalqın mənəvi gümrahlığının qorunub saxlanılması və xilas olunması üçün. Buna görə də istisna etmirəm ki, ağ rəmzin əmələ gəlmə köklərini məhz elə bu cür baxış dairəsində də axtarmalıyıq. Zülmət və işığın kontrast olaraq qarşıdurması demək olar ki, bütün bəşəriyyətin tarixi, istər din, fəlsəfə olsun, istərsə də bədii yaradıcılıq boyunca keçir və təbiidir ki, təhlil olunan eposda da özünü aydınca büruzə verir. Başqa daha heç nə deməsək, gündüz və gecənin bir-birilə qarşıdurması da, necə ki, gündəlik həyatda da labüddür, düşüncənin məkanında bu kontrast həll olunur, banal dərketmə ilə nəql edilir. Budur, elə götürək, Dədə Qorqudun qoşmalarının birində səhərin açılması necə əks olunmuşdur: "Ağlı-qaralı seçilən çağda, köksi gözəl qaya dağlara gün dəgəndə" (Elə orada, səh. 35-36). Dan yerinin sökülməsinin və yaxud ağı qaradan seçmək vaxtı həddindən artıq füsunkardır ki, bu da öz sadəliyi və zərifliyi ilə bu gün də oxucuda təəssürat oyadır. Və ya ananın nalə çəkəndə ürək ağrısını, fəğanını xatırlayaq: "Qaranlıq gecədə bulduğum oğlum hani" (Elə orada, səh. 42). Bu halda da "qaranlıq gecə" kontrast funksiyasını daşıyır və bizə nəql edir ki, ana qaranlıq gecədə çətin doğulmasına və böyük xoşbəxtlik verməsinə baxmayaraq oğlunu daha görə bilmir.

Elə burada vurğulamalıyam ki, təhlil olunan epos rənglərin çoxluğu ilə fərqlənmir. Qara və ağdan başqa həyatın müjdəçisi olaraq al qan və fərqli cinsin göstəricisi kimi qızıl dəvəyə tez-tez rast gəlirik. Eləcə də xatırlanıb: qırmızı xələt, qırmızı köynək, məmələrin qırmızı ucları, alma kimi qırmızı yanaq və sair. Bütün bunlar bizi düşündürməyə vadar edir ki, qədim oğuzlarda qırmızı rəng müsbət emosiya oyadıcısı və ən başlıcası, xeyirxahlığın, əxlaqın, gözəlliyin və fərqliliyin spekrtində yayılıb. Elə burada bizə tez-tez rast gəlir: alagözlü bəylər, ala dağ və yaxud rənglərin alalığı ilə fərqlənən, ala çadır, ala ceyran, ala qaz, ala ördək, ala sağsağan və sair. Bu da ki, əksər hallarda təbiiliyin və yaxud genetik əlamət xüsusiyyətinin göstəricisi, bir qayda olaraq müsbət kontekstdə işlədilir. Bir dəfə xatırlanır: artıq qanuniləşmiş, geniş yayılmış obraz olan boz atlı, yaşıl donlu Xızır. Və bizə bir dəfə rast gəlir: "Oldur, sarı donlu Selcan xatun köşkdən baqar, kimə baqsa, eşqiylə oda yaqar!"(Elə orada, səh. 137).

Ümumiyyətlə, rənglərin ağlığı folkloru xarakterizə edir. Bu baxımdan türkdilli folklor da istisna deyildir. Bundan başqa, onu da unutmamalıyıq ki, orta əsrlərin dərviş, istərsə də klassik literlərdə rənglərin simvolikası metafor səviyyədə qanuniləşmiş və müəyyən edilmişdir, bu da onların müəyyən sxematikliyini şərtləndirir. Təhlil olunan qəhrəmanlıq eposu da bu sxematik çərçivəyə daxil olur ki, burada təsvir olunan aləm oğuz həyatının xüsusiyyətinin göstəricisi olmasına baxmayaraq, folklora və ümumiyyətlə, orta əsrlərin klassik ədəbiyyatında işlənib hazırlanan estetik prinsiplərə ixtiyari, istərsə də qeyri-ixtiyari tabe olur.

İndi bu eposa bağlanan idiomatik ifadələri, kəlmələri, aforizmləri, idiomları, atalar sözlərini və məsəlləri, istərsə də oğuz xalqının müdrik müşahidələrini xatırlasam artıq olmaz:

Həddindən artıq tez-tez təkrar olunur:

1) "At ayağı külüg, ozan dili çevik olur" (Elə orada, səh. 38). Ozanın natiqliyini, danışıq qabiliyyətini oxucuya xatırladan bir növ nəqaratdır;

2) "Aqar turı sulardan xəbər keçə, arqurı yatan Ala tağdan xəbər aşa, xanlar xanı Bayandır xana xəbər vara" (Elə orada, səh. 39-40). Bu cür kontekst tez-tez təkrar olunur ki, bu da bizə stereotip mənzərə verir və fəaliyyətdə olan qəhrəmanı ehtiyatlı olmağa çağırır;

3) Eləcə də müraciət edilən zaman kəlmə təkrar olunur: "Ünüm ünlə, sözün dinlə". Bunu da ki, səyyar kəlmə kimi hesab edə bilərik.

İndi oğuz tələqinlərindən ki, bunları da ənənələrin və etikanın bəhrəsi kimi hesab edə bilərik, bir neçəsini gətirməklə kifayətlənəcəyəm:

a) "Oğlan anasının sözin sımadı" (Elə orada, səh. 46);

b) Eləcə də oğul atasının sözündən çıxmırdı. O dövrlər oğul ataya zor göstərmirdi, özünə bir daha söz dedizdirmirdi. Əgər dedizdirirdisə, belə oğula oğul deyilmirdi (Elə ordada, səh. 104);

c) O dövrlər belə bir qayda var idi: oğlan kiminsə başını kəsməmiş, qan tökməmiş ona ad qoymurdular (Elə orada, səh.70);

ç) Qazan deyir: "Ona görə yağı deyirlər ki, biz onlara yetsək, öldürərik, onlar bizi ələ keçirsələr öldürərlər" (Elə orada, səh. 182);

d) Oğuzların dövründə belə bir qayda var idi: evlənən hər igid ox atardı, oxu düşən yerdə gəlin otağı qurardı (Elə orada, səh. 80);

e) Bunu deyəndə qırx igid böyük çalmasını çıxardır, yerə çırpır, acı-acı nalə çəkir (Elə orada, səh. 84);

ə) Oğuz igidi üçün bir qaydaya çevrilmişdir: yoldaşlarını (dustaqlıqdan, çətinlikdən) xilas etməyincə muradına yetməzdi. İllah da ki, oğlanı gəlin otağına salanda, qızla yorğan-döşəyə girəndə oğlan qılıncını araya qoyur. Qız "qılıcı geydur, igid, murad ver, murad al, sarılalım" deyəndə oğlan ona deyir: "Mərə qavat qızı, mən qılıcıma doğranayım, oxuma sancılayım! Oğlun doğmasun, doğarsa, on yaşına varmasun, ağamın yüzin görməyincə, ölmüş isə, qanın almayınca bu gərdəyə girərsəm" (Elə orada, səh. 180). Bu gətirilən yer qardaşların məhəbbətinin, möhkəm və sarsılmaz qardaşlıq sədaqətinin nə dərəcədə güclü olduğunu təsdiqləyir ki, buna da igidin andı möhür vurur.

Oğuzların ənənəvi qayda və etik prinsipləri haqqında nümunələr bitmir. Bunun barəsində geniş söhbər açdım. Bu dəfə isə ora-bura yapışdırılmış və sanki əhəmiyyətsiz hesab olunan bəzi baxış dairəsini xatırlama üzərində dayanacağam. Lakin axırda, hər halda, bəzi idiom, aforizm, atalar sözü, istərsə də xalq müdrikliyinin ifadəçisi olan tələqinləri gətirmək istəyirəm:

a) Bu "boş dünya başına dar oldu və gözünə qaranlıq çökdürdü" (Elə orada, səh. 150);

b) "Aslanın ənigi yenə aslandır" (Elə orada, səh. 170);

c) "Göy iraq, yer qatı"(Elə orada, səh. 171);

ç) "İklü ulalur, qabırğalı böyür" (Elə orada, səh. 178)4;

d) "Əski donun biti, öksüz oğlanın dili acı olur" (Elə orada, səh. 137);

e) Zirehli geyim vurulan qılıncdan, at kişnərtisindən bilinər (Elə orada, səh. 142);

ə) "Vallahi, billahi, Tanrım doğru yolu görürkən, əyri yoldan gəlməyəlim (Elə orada, səh. 189);

f) "Yalnız yigid alp olmaz, yovşan kibi bərk olmaz" (Elə orada, səh. 173).

Bu sadalama siyahısını yenə də davam etdirərdim, lakin buna zərurəti görə bilmirəm: birincisi, ona görə ki, bu barədə təhlil olunan eposun bu xalq müdrikliyinin Dədə Qorqudun dünyagörüşünün baxışının birgə toplandığı və təqdim olunduğu (aforizmlər, atalar sözləri, ənənəvi tələqinlər və sair) müqəddiməsinin müzakirəsi zamanı daha geniş söhbət açdım ki, bu da eposun demək olar ki, bütün boylarında süjet inkişafının və semantik məhvərinin icraçısıdır, buna da bu əsərin təhlili zamanı əməlli-başlı yer ayırdın. İkincisi də, yuxarıda gətirilən kiçik material, düşünürəm ki, bu eposun yazı manerası və üsulu barədə oxucuda müəyyən fikir və ümumiyyətlə, təsəvvür yaratmaq üçün kifayətdir.

Sonunda qeyd etmək istəyirəm ki, "Kitabi Dədə Qoqud" təqdirəlayiq qəhrəmanlıq eposlarından biridir ki, bu da təkcə türkdilli aləmi deyil, eləcə də Yaxın Şərqin vahid mədəni məkanının bədii və əxlaqi arenasını zənginləşdirir. Bəli, bu Oğuz xalqalarının tarixini, onların həyat tərzini və ən başlıcası etik məcəllənin və estetik inancın bu təbiətlə qaynayıb qarışan, ruhən sərbəst tayfa işləyib hazırlayan, kədər və sevinclə dolu ürəklə qopuzda səsləndirilən qəhrəmanlıq eposudur. Bu müxtəlif illərdə yaranmış eposlar toplusu xalq tərəfindən ümumiləşdirilmiş müdrik və peyğəmbər sima Dədə Qorqudun adına yazılır. Buna görə də Dədə Qorqud əxlaqi-estetik mərkəzdir ki, ondan da bütün bəşəri fikir, fəaliyyətin dinamik axını axıb gəlir və ona doğru da bu əsərin fəaliyyətinin dinamik axını üz tutur, müvafiq olaraq bu eposun bütün aspektini – istər fəlsəfi-dini, istərsə də bədii-estetik olsun – əsas kompozisiya məhvərini təşkil edir. Və bir də, oxucunu heyran etmiş və edən "Dədə Qorqud"un şəffaf estetik arenasıdır – hər cür bədii karaqmalar ilə yüklənmiş və sadəliklə doldurulmuş arena. Qısası, möhtəşəm mənzərələri ilə təkcə bizi təəccübləndirmir, eləcə də həmin sadəlik meyarları ilə, sadə xalq üçün naxışları ilə yekunlaşdırılmış bu bədii abidə gözəlləşdirir və ona füsunkarlıq verir.

*(son)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## HƏYAT DƏRSLƏRİ

### 29. QÜRBƏTDƏN GÖRÜNƏN VƏTƏN



*(əvvəli ötən sayda)*

Dünyanın ölçüləri inanılmaz dərəcədə kiçilib. Az qala dünya bir məktəbli qlobusu böyüklükdə kiçik maketə çevrilib, ovuc içinə yerləşəcək bir kürəyə dönüb. İnsan beyninin təxəyyül imkanlarının, xəyal qurmaq bacarığının sərhəd tanımadığını, artıq bu sərhədlərin silindiyini bir kənara qoyub, insan beyninin davamı kimi görünən müasir texnologiyaların sürətli inkişafını, nəqliyyat vasitələrinin sıçrayışlarla irəliləyişini qabartsaq mənzərəni aydın təsəvvür etmək olar. Dünyanın ölçülərinin kiçildiyini bir anda min kilometrlərlə səndən uzaqlarda baş verən hadisələrdən xəbərdar olman, qısa müddətdə minlərlə kilometrlik məsafəni qət etmən daha yaxşı təsdiqləyər. Sürət, inkişaf dünya adlı bu məkanı kiçiltməkdə, insanları kiçik bir qazanda qaynadırmış kimi, heç bir fərq qoymadan, ağına-qarasına baxmadan bir-birinə qarışdırmaqdadır. Bütün bunlar qloballaşmanınmı əlamətləridir?

İnsan Vətən dediyi yerlərdən, doğmalarından qopmaq məhkumiyyətini yaşamaqdadır. Bu dünən də belə idi, bu gün də belədir, sabah da belə olacağı gözlənilləndir. Vətən coğrafiyasından ayrı düşən insan qərib, düşdüyü yeni coğrafiya isə qürbətdir. Düzdür, klassik anlamda qərib sayılmasan da, düşdüyün yer qürbətdir. Bunun başqa adı yoxdur. Tərki-vətənliyin insana nələr yaşatdığını yalnız qürbətə düşənlər anlada bilər. Nədən ki, daş düşdüyü yerdə ağırdır.

O dövr deyil ki, yaz-payız üzü qürbət göylərinə baxıb Vətənin, Vətəndə qalanlarının əhvalını "üçtelli, beştelli durna"lardan xəbər alasan və ya axıb gedən buludlardan soruşasan. Əsən küləklərdən, məsələn, badi-səbadan, sevdiyinə xəbər göndərmək dönəmi də arxada qalıb. Nə qədər sosial şəbəkələr, məsələn, votsap, feysbuk, instaqram xəbərlər gətirsə də, bu xəbərlər nə qədər səsli, görüntülü olsa da, sən qərib, oturduğun yersə qürbətdir. Sən sevdiklərinə toxuna bilmirsənsə, bağrına basıb ətirlərini bir udum dağ havası tək içinə çəkmək imkanın yoxdursa, sənin bircə adın var – qərib. Vətənin havasını ala bilməmək, onun ağ-qara təsvirini canlandıran yuxularından yarımçıq oyanmaq qəribin qorxularıdır. Bəzən bizim ağzıgöyçəklərdən birinin dediyi "adam da elindən-obasından ayrılarmı" sərsəmləməsinə isə cavab vermək belə artıqdır. Hərənin qürbət yollarını tutmasının bir səbəbi var. Bunu bilənlər bilir.

Mənim doğma yurdum Gürcüstanın şərqində yerləşir. Tarixən Qarayazı, bu gün Qardabani adlandırılan, öz xüsusi ənənələri olan bir eldir. Bu elin adı həmişə qoşa çəkilən qədim-qayım kəndləri – Nəzərli və Kosalı mənim uşaqlığımın və ilk gəncliyimin, bir qədər fasilələrlə ömrümün böyük hissəsini keçirdiyim yerlərdir. Qədim Tiflisin beş addımlığında yerləşən bizim elin insan coğrafiyası çoxşaxəlidir. Bəlkə də dünyanın əksər ölkələrində bizim elin nümayəndələrinə rast gələ bilərsən. Dolanışıq ucbatından yerini-yurdunu tərk edənlərin sayı günbəgün artmaqdadır. İqtisadi keçimsizlik səbəbindən eli tərk edənlərin yarı canı həmişə çıxdıqları bu məkanda qalır. Dünyanın harasına getsələr də, ruhları ilə doğulduqları bu torpaqlara bağlıdırlar, bu torpaqla nəfəs alırlar.

Hərəni bir səbəb doğma yurdundan qoparıb ayırır. Kimini keçimsizlik, kimini karyera, kimini şəhərli olmaq istəyi, kimini yalan, kimini doğru tərki-vətənə çevirir. Kimi də qonşudan dala qalmamaq, "o, getdi, mən niyə getməyim" prinsipilə yola çıxır. Cüzi bir qismi isə macərapərəstliyi qürbət yollarının yolçusu edir. Nə demək olar. Bu həyat bir sapand, biz də o sapandın daşları. Hara istəsə atır, biz də istəmədən həyat adlı sapandın atdığı yerə düşürük. Bunu bir tale oyunu, bir alın yazısı kimi dəyərləndirir, yazılanların qürbət dönəmini yaşayırıq.

Mənim qürbət həyatımı da belə yozmaq, belə dəyərləndirmək olar. Kimi bunu ömrümün ən gözəl dövrü hesab edib, məni bəxtəvər də saya bilər. Bir başqası da məni eldən çıxdığıma görə qınaya bilər. Kimi bunu mənim ağılsızlığım və ya doğru qərarım da saya bilər. Hər kəsin fikrinə, necə düşünməsindən asılı olmayaraq, sayğım sonsuzdur. Bunu tam səmimiyyətimlə deyirəm. Amma heç kim mühacirlikdə keçən günlərə görə, bu könüllü sürgünə görə kimsəni qınamamalıdır. Qürbətə düşməyən qürbəti bilmaz. Sadəcə öz təsəvvüründə canlandırdıqlarını söyləyə bilər. Ailədən, doğmalardan uzaqlarda yaşamanın sıxıntısı insanın ömrünü bir heçə döndərir, həyatının qürbətdə keçən günlərini mənasız edir. Bunu öz acı təcrübəsində yaşamış adamlardan sorsan, daha gözəl anlatmazlarmı? Bu adamların gözlərində gizlənmiş kədəri, üzlərinə hopmuş sirli həyəcanı oxumaq üçün də psixoloq-filan olmağa gərək yox. Bir insani baxış, insani diqqət bunları oxumaq üçün yetərlidir.

Dünya bütün bəşəriyyətin ümumi evidir. Onu çoxotaqlı bir saraya bənzətsək, hər bir insanın Vətənini də o sarayın otaqlarından biri saya bilərik. Getdiyimiz ölkələri isə həmin sarayın qonaq otağı adlandırmaq olar. Bu fikirlərimi kosmopolit düşüncə də saya bilərsiniz.

İnsanın Vətənini tərk etməsinin, caleyi-vətən olmasının dürlü səbəbləri olmamış deyil. Dini, mədəni, siyasi, iqtisadi nədənlərlə didərgin düşənlərin sayı hər il durmadan artmaqdadır. Doğma yurdunu tərk edən insan mühacirə, miqranta çevrilir. Tərketmə səbəbinə görə qaçqın, köçkün də adlandırıla bilər. Doğma yurdu tərk etdikdən sonra necə adlandırılmağın nə əhəmiyyəti var axı? Yerini-yurdunu tərk edib miqranta çevrilən adamın yeni düşdüyü mühitə, coğrafiyaya adaptasiya olunması, alışması zamana bağlıdır. Biri bu prosesi sürətlə keçir, uyğunlaşma prosesi ona asanlıqla başa gəlir və düşdüyü yerdə özünü evindəki kimi hiss edir, özünü yeni mühitin ayrılmaz bir üzvü kimi göstərir, günüm harada yaxşı keçir, ora mənim vətənimdir deyərək, özünü dünyanın bəxtəvərlərindən sayır. Bir başqası isə, bütün bunları ağrı, dərd-qəm, ahu-zar içərisində keçirməli olur.

Mühacir özünü – dinini, əxlaqını, məişətini, mədəniyyətini yeni mühitə uyğunlaşdırmalı, yeni mühitin tələbinə uyğun hərəkət etməlidir. Müxtəlif səbəblərdən miqranta çevrilən insan üz tutduğu yerlərə təkcə quru bədənini deyil, mənəvi dəyərlərini də – milli mədəniyyətini, əxlaqi dəyərlərini, dini inancını – tanrısını, peyğəmbərini də aparmalı olur. Onillər ərzində o, dilinin, dininin, mətbəxinin, musiqisinin və s. bir qismini itirir, bunların üzərinə fərqli elementlər əlavə olunur. Miqrant öz maddi-mənəvi dəyərlərindən düşdüyü mühitə də ötürə bilir. Düzdür, bu ötürmə passiv, zəif görünə bilər, nəzərəçarpacaq dərəcədə olmaya da bilər, amma varlığı danılmazdır. Qarşılıqlı şəkildə baş verən bu proses "sənin-mənim", "yerli-gəlmə" prinsiplərinin silinməsi görüntüsü də yarada bilər.

Ancaq bütövlükdə bu prinsiplərin aradan qalxması üçün yetərli olmaz. Yeni mühitdə baş verən siyasi qarşıdurmalar, iqtisadi böhranlar zamanı bu prinsiplərin sadəcə müvəqqəti olaraq unudulduğu meydana çıxar, miqrantlara gəlmə olduqları xatırladılar. Onların yerli mədəniyyətə, yerli dinə təhlükə yaratdıqları bəyan edilər. Bəzən vətəndaşlığı olsa da, hələ də yerlilər üçün qonaq-gəlmə hesab edilənlərin yerliyə – ev sahibinə irad bildirməsi, sadə dillə desək, ona ağıl öyrətməyə cəhd etməsi, özünü gəmiçi, vətənini gəmi hesab edən yerlinin qəzəbinə də səbəb ola bilir. Ox yaydan çıxır. Onillər bundan qabaq gəlsələr də, hələ də hər məqamda gəlmə olduqları xatırladılanların ev sahibinin kim olmasını unutmaları, ona gəmini başqa cür idarə etmək yöntəmlərinin də olduğunu bildirmələri dönüşü olmayan qarşıdurmalara, münaqişələrə də gətirib çıxara bilər. Yəni belə ehtimalların ola biləcəyini də unutmamaq gərəkdir.

Bir-iki örnək verməklə fikrimi davam etdirim. Qədim Romada plebeylərin patrisilərlə yüzillər boyu davam etmiş qarşıdurmasını xatırlayın. Roma vətəndaşlığı almaq üçün aparılan mübarizənin gedişində nə qədər qanlar axıdıldığını təsəvvür etmək belə çətindir. Afro-amerikanların Amerikaya gəlişləri Avropa mənşəlilərdən qısa bir müddətə sonraya təsadüf etsə də, aradan yüzilliklər ötüb keçsə də, qanunla irqi ayrı-seçkilik ləğv edilsə də həyatda qaraların ağlara nisbətən ağır durumda yaşamaları, diskriminasiyalara məruz qalmaları danılmazdır. Elə ABŞ-ın Minnepolis ştatında polislərin boğaraq öldürdükləri qaradərili Corc Floyd hadisəsi dediklərimizi təsdiqləmirmi? Bütün bunlar dünyanın elə başdan bu cür qurulduğunu, insanın insana münasibəti şəkilcə dəyişsə də, mahiyyətinin dəyişmədiyini sübut etmək üçün yetərlidirmi?

Bəzən bu münaqişələrin qəsdən yaradıldığı, bilərəkdən ortaya atıldığı, hansısa mərkəzdən idarə olunduğu da danılmazdır. Nədən ki, bunu ortaya atanlar bulanlıq suda balığın daha tez tora düşdüyünü də bilməmiş deyillər. Xaos, qarışıqlıq yaradıb, onu idarə etməyi də əla bacaranlar, sudan quru çıxmağın yollarını da yaxşı bilirlər. Ölkəni idarə edə bilməyən iqtidarların milli zəmində qarşıdurmalar yaratmaqdan çəkinmədikləri də tarixi təcrübədən bəllidir. Siyasi idarəetmə vasitəsi kimi tarix boyu dəfələrlə sınaqdan keçirilmiş köhnə metoddur. Bu gün də istifadə olunmaqdadır. Ölkədə baş qaldıran problemləri həll edə bilməyən siyasi qüvvələr milli-dini, irqi ədavəti qızışdırmaqla xalqın diqqətini əsas problemdən yayındırmağa çalışır, xilas yolunu insanları bir-birinə qarşı qoymaqda axtarırlar. Bunun üçün ölkədə sayca üstün olan etnosa ünvan da işarə verirlər. Məkrli yollarla ölkədə həllini gözləyən problemlərin milli-dini azlıqlardan qaynaqlandığını ortaya atırlar. Belə desək, oğru yadına daş salırlar. Çanaq adətən milli azlıqların başında çatlayır. Bu üsulla siyasi dairələrin vaxt qazanmaq, düşdükləri çətin vəziyyətdən xilas yolları aramaq istədikləri bəlli olur. Hətta bu yolla onlar özlərinin xilaskar obrazlarını da dizayn edir, itirdikləri nüfuzu bərpa edə bilirlər. Qədim Romada, Çar Rusiyasında, onun varisi SSRİ-də mövcud olmuş bu idarəetmə metodu müsair Afrika ölkələrində, Çində bu gün də davam etdirilməkdədir.

*(ardı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
*Niderland*

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL
2023-CÜ İL
№ 003 (174)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ÖTƏN İL İCAZƏSİZ YAŞADIĞINA GÖRƏ ƏN ÇOX GÜRCÜSTAN VƏTƏNDAŞININ GERİ QAYTARILDIĞI ÖLKƏLƏR



Daxili İşlər Nazirliyi readmissiya çərçivəsində icazəsiz yaşayan Gürcüstan vətəndaşlarının geri qaytarılması ilə əlaqədar 2022-ci ilin statistikasını yayımlayıb. Rəsmi göstəricilərdən aydın olur ki, hesabat dövründə ümumilikdə 3 034 Gürcüstan vətəndaşı ilə bağlı readmissiya həyata keçirilib. 2021-ci ildə bu göstərici 2 547 nəfər təşkil edib.

Daxili İşlər Nazirliyi tərəfindən yayımlanmış məlumata əsasən, 2022-ci il ərzində Gürcüstan ümumilikdə 3 034 readmissiya ərizəsi qəbul edib. Buradan 3 014 müraciət təmin edilib, 20 müraciətlə bağlı mənfi qərar qəbul edilib.

Readmissiya çərçivəsində icazəsiz yaşayan ən çox Gürcüstan vətəndaşı 1 681 nəfər Almaniyadan, 560 nəfər Fransadan, 143 nəfər İsveçrədən, 120 nəfər Yunanıstandan, 101 nəfər Polşadan geri qaytarılıb.

Digər ölkələrə gəldikdə isə göstəricilər bu cürdür:
Belçika – 71 nəfər;
İtaliya – 66 nəfər;
Hollandiya – 57 nəfər;
İspaniya – 51 nəfər;
İsveçrə – 42 nəfər;
Danimarka – 41 nəfər;
Avstriya – 39 nəfər;
Portuqaliya – 18 nəfər;
Çexiya – 12 nəfər;
Kipr, Lüksemburq – 9 nəfər;
Bolqarıstan, Finlandiya, Norveç – 3 nəfər;
İrlandiya, Macarıstan – 2 nəfər;
Moldova –1 nəfər.

Qeyd edək ki, Gürcüstan Avropa İttifaqı, Danimarka, Norveç, Moldova və s. ilə readmissiya sazişi bağlayıb.

Readmissiya digər ölkələrin ərazisinə qeyri-qanuni daxil olan və orada qeyri-qanuni yaşayan şəxslərin (öz vətəndaşları, onun ərazisi vasitəsilə təyinat ölkəsinə daxil olan üçüncü ölkə vətəndaşları və ya onun ərazisində daimi qeydiyyatda olan vətəndaşlığı olmayan şəxslər) dövlət tərəfindən geri qəbul edilməsidir.

Readmissiya sazişi hər hansı bir dövlətin ərazisində qanunsuz olan əcnəbinin öz mənşə ölkəsinə və ya tranzit ölkə kimi istifadə etdiyi ölkəyə qaytarılması prosedurlarını müəyyənləşdirən razılaşmadır.

## GÜRCÜSTANDA PENSİONERLƏRİN 71 %-Nİ QADINLAR TƏŞKİL EDİR




Gürcüstanın Milli Statistika Xidməti sosial təminatla bağlı statistika yayımlayıb. Sənədə əsasən, ölkədə ümumilikdə 808 min pensiyaçı var, onların 71 %-i qadın, 29 %-i kişidir.

Xatırladaq ki, Gürcüstanda qadınlar 60, kişilər 65 yaşında pensiyaya çıxırlar. Ölkədə kişilərin orta yaş həddi 67,5, qadınlarınkı isə 75,4-dür.

Statistikaya əsasən, pensiya alanların 29,9 %-i paytaxt Tbilisidə, 16,0 %-i İmeretidə, 10,6 %-i Sameqrelo-Zemo Svanetidə, 9,8 %-i Kvemo Kartlidə, 8,8 %-i Kaxetidədir, qalan bölgələrdə isə ümumilikdə 24,9 % təşkil edir.

Sosial paket alan şəxslərin sayına gəldikdə isə, bu rəqəm 178 426 nəfər təşkil edir, buradan 33,3 % qadınlar, 66,7 % kişilərdir. Sosial paket alanların 70,6 %-i fiziki imkanları məhdud olan şəxslər, 12,85 %-i müharibə iştirakçıları, 12,0 %-i ailə başçısını itirmiş ailə üzvləri, 4,4 %-i dövlət kompensasiyası alan şəxslər, 0,2 %-i isə digər növ sosial paket alan şəxslərdir.

Bölgələrə əsasən sosial paket alanların 27,1 %-i Tbilisidə, 16,6 %-i İmeretidə, 11,5 %-i Acarada, 9,6 %-i Sameqrelo-Zemo Svanetidə qeydə alınıb, qalan bölgələrdə isə ümumilikdə 35,2 % təşkil edir.

## ÖTƏN İL CƏRİMƏLƏRDƏN BÜDCƏYƏ REKORD MƏBLƏĞ DAXİL OLUB



2022-ci ilin büdcəsinə cərimələr hesabına rekord məbləğ daxil olub. Ötən il ərzində büdcəyə sanksiyalar, cərimələr və borclardan 281 741 849 lari toplanıb. Buradan dövlət büdcəsinə 129 720 204 lari, ərazi vahidliklərinin büdcələrinə isə 152 021 644 lari səfərbər edilib.

Qeyd edək ki, cərimələrlə büdcənin doldurulması göstəricisi illik 43,9 %, yəni 14 dəfə artıb. 2021-ci ilin büdcəsində sanksiyalardan 195 828 629 lari yığılıb.

Müqayisədə 2022-ci ilin göstəriciləri ilə 2019-cu ilin göstəriciləri yaxın olub, belə ki, büdcəyə cərimələrdən 206 322 089 lari toplanıb.

Bundan əlavə, Dövlət Xəzinədarlığının məlumatına görə, ötən il Gürcüstanın birləşmiş büdcəsinin gəlirləri 26 191 825 560 lari təşkil edib.

Məlumat üçün qeyd edək ki, birləşmiş büdcə Gürcüstanın dövlət, muxtar respublikaları, respublika və yerli özünüidarəetmə vahidlərinin konsolidasiya edilmiş büdcəsidir və hökumətin heç bir nümayəndəlik orqanı tərəfindən təsdiq olunmur.

## 2030-CU İLDƏ ÖLKƏDƏ YOXSULLUĞUN SƏVİYYƏSİ 10,7%-Ə ENƏCƏK



2030-cu ildə Gürcüstanda yoxsulluğun səviyyəsi 10,7 %-ə enəcək. Bu barədə hökumət tərəfindən təsdiqlənmiş “2030-a baxış – Gürcüstanın İnkişaf Strategiyası”nda qeyd olunub.

Sənədə görə, 2021-ci ildə Gürcüstanda mütləq yoxsulluğun səviyyəsi 17,5 faiz təşkil edirdi, plana əsasən, bu göstərici 2025-ci ildə 14,9 faiz, 2030-cu ildə isə 10,7 faiz təşkil etməlidir.

Sənəddə həmçinin iqtisadi artım proqnozları da müzakirə olunub. Hökumətin məlumatına görə, 2021-ci ilin baza ilində ümumi daxili məhsulun artım tempi 10,4 % təşkil edib. Gürcüstan iqtisadiyyatı 2025-ci ildə 5,2 %, 2030-cu ildə isə 5 % artacaq.

Sənədə əsasən, 2021-ci ilin baza ilində dövlət borcunun ümumi daxili məhsula nisbətinin sabitlik səviyyəsi 49,4 % təşkil edib və Gürcüstanın inkişaf strategiyasına əsasən, bu nisbət 2025-ci ildə 42,5 %-ə, 2030-cu ildə isə 35 %-ə bərabər olmalıdır.

## ÖTƏN İL 70 HƏKİMİN SERTİFİKATI DAYANDIRILIB

Ötən il 70 həkimin dövlət sertifikatı dayandırılıb, 6 həkimin isə ümumiyyətlə ləğv edilib. Bu barədə Tibbi və Əczaçılıq Fəaliyyətinin Tənzimlənməsi Agentliyinin 2022-ci il üzrə iş hesabatında qeyd olunub.

“Peşə İnkişafı Şurası xəstələrə göstərilmiş tibbi xidmətlə bağlı 140 məsələni (426 həkim, onların arasında bir həkim iki tibb ixtisası üzrə peşə məsuliyyətinə cəlb olunub. Buradan irəli gələrək, 427 işdə 426 həkimin peşə məsuliyyəti məsələsi qaldırılıb) müzakirə edib.

Şura tərəfindən 39 həkimin məsələsi təxirə salınıb. 121 həkim peşə məsuliyyətinə cəlb olunmayıb. 267 həkim peşə məsuliyyətinə cəlb olunub, onlardan 191 həkimə “yazılı xəbərdarlıq” edilib. 70 həkimin sertifikatı müxtəlif müddətə dayandırılıb (25 həkim – 1 aylıq; 11 həkim – 2 aylıq; 13 həkim – 3 aylıq; 21 həkim – 6 aylıq), 6 həkimin dövlət sertifikatı isə ləğv edilib”, – sənəddə deyilir.

Səhifədəki məlumatlar “businesspressnews.ge” saytından götürülüb.
Gürcü dilindən tərcümə etdi **Aynurə ƏLİYEVA**

**Təsisçi:** “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.